*Qədim Diyar Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 8, Sayı: 6, s. 194−199
*Ancient Land International Scientific Journal.* June 2026, Volume: 8, Issue: 6, pp. 194−199
DOI: https://doi.org/10.36719/2706-6185/61/194-199

# Xarici dil öyrənmədə əməkdaşlıq və qrup işinin təsiri

**Ruqiyyə Həsənova[1*], Günay Nağıyeva[2]**

***Xülasə.*** *İngilis dili beynəlxalq ünsiyyət, biznes və texnologiyanın dili kimi Azərbaycan təhsil sistemində də mühüm yer tutur. Bu kontekstdə qrup işi xarici dil öyrənmədə ən səmərəli metodlardan biri kimi təqdim olunur. Qrup işi şagirdlərin əməkdaşlıq, ünsiyyət, liderlik və sosial bacarıqlarını inkişaf etdirir, motivasiyanı artırır və öyrənməni daha maraqlı və məhsuldar edir. Müəllimlər bu prosesdə fasilitator rolunda çıxış edir, şagirdlər isə aktiv iştirakçı olur. Qrup işi yalnız Azərbaycanda deyil, müxtəlif ölkələrin təhsil sistemlərində də uğurla tətbiq olunur. Müəllimlər və tələbələr bu metodu motivasiyaedici, öyrənməni sürətləndirən və ünsiyyət bacarıqlarını gücləndirən bir üsul kimi qiymətləndirirlər. Əlavə olaraq, qrup işi şagirdlərdə məsuliyyət hissini artırır, onların birgə qərar qəbul etmə bacarığını formalaşdırır və müasir əmək bazarında tələb olunan komanda işinə hazırlayır. Bu metod həm də şagirdlərin özünəinamını gücləndirir, onları gələcək peşə və sosial həyatda daha hazırlıqlı edir. Beləliklə, qrup işi dil öyrənmədə sadəcə yazı və oxu vərdişlərini deyil, həm də real ünsiyyət bacarıqlarını formalaşdıran, müasir təhsil sistemində mühüm yer tutan bir yanaşmadır.*

***Açar sözlər:*** *ingilis dili, qrup işi, əməkdaşlıq, motivasiya, ünsiyyət bacarıqları*

[1]Naxçıvan Müəllimlər İnstitutu, doktorant, Naxçıvan, Azərbaycan
[2]Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
[*]Məsul müəllif. E-poçt: hasanovarugiyya1992@gmail.com
Daxil oldu: 22 Dekabr 2025; Qəbul edildi: 27 Aprel 2026; Onlayn dərc edildi: 28 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# The Effect of Collaboration and Group Work in Foreign Language Learning

**Ruqiyya Hasanova[1*], Gunay Naghiyeva[2]**

***Abstract.*** *English is considered the language of international communication, business, and technology, and it also holds an important place in the Azerbaijani education system. In this context, group work is presented as one of the most effective methods in foreign language learning. Group work develops students' cooperation, communication, leadership, and social skills, increases motivation, and makes learning more interesting and productive. Teachers act as facilitators in this process, while students become active participants. Group work is successfully applied not only in Azerbaijan but also in the education systems of many countries. Both teachers and students evaluate this method as motivating, accelerating learning, and strengthening communication skills. In addition, group work increases students' sense of responsibility, helps them develop decision-making skills, and prepares them for teamwork, which is highly demanded in the modern labor market. This method also strengthens students' self-confidence and makes them more prepared for future professional and social life.*

*Thus, group work in language learning does not only improve reading and writing skills but also builds real communication abilities and plays an important role in modern education.*

**Keywords:** *english, group work, collaboration, motivation, communication skills*

---

[1]Nakhchivan Teachers' Institute, PhD student, Nakhchivan, Azerbaijan
[2]Nakhchivan State University, Nakhchivan, Azerbaijan
[*]Corresponding author. E-mail: hasanovarugiyya1992@gmail.com
Received: 22 December 2025; Accepted: 27 April 2026; Published online: 28 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

İngilis dili beynəlxalq və böyük nüfuza malik bir dildir. Dünyanın elə bir yeri yoxdur ki, orada ingilis dilində bilməyən bir insan belə tapılmasın. İngilis dili ünsiyyət dili olmaqla yanaşı həmçinin ticarətin, biznesin və texnologiyanın dili kimi də mühüm əhəmiyyətə malikdir. Bu gün demək olar ki, dünyanın hər bir yerində iqtisadiyyat və biznes ingilis dilində idarə olunur. Dünyada baş verən bir sıra dəyişikliklər ingilis dilinə olan tələbatı günü-gündən artırmaqdadır. Bu dəyişikliklərdən əlbəttə ki, Azərbaycan və onun təhsil sistemi də kənarda qala bilməz. Uzun müddət rus təhkimçiliyinə məruz qalmış Azərbaycan bu gün bütün sahələrində diqqətəlayiq inkişaf və tərəqqi əldə etmiş, sovet ideologiyasının vurduğu zərbələri aradan qaldırmağa nail olmuşdur. Bu inkişafdan təhsil sahəsi də öz payını almışdır. Məktəblərdə ingilis dili fənninə maraq artırılmış və dövlətin diqqəti daim bu yöndə olmuşdur. Məktəblər müasir texnoloji avadanlıqlarla təchiz olunmuş və dərslərin keyfiyyəti də sözsüz ki, artmışdır. İngilis dilinin tədrisində məqsəd yalnız qrammatika və lüğət öyrətmək deyil, eyni zamanda bu bilikləri real ünsiyyət şəraitində tətbiq etmək bacarığını formalaşdırmaqdır. Bu məqsədə çatmaq üçün interaktiv təlim metodları – xüsusilə qrup işi çox böyük əhəmiyyət daşıyır.Sürətlə dəyişən cəmiyyət müstəqil və tənqidi şəkildə dialoqlarda iştirak edə bilən, öz fikirlərini ətraf reallıqla ahəngdar şəkildə əlaqələndirən, problemlərə yaradıcı yanaşan və onları səmərəli şəkildə həll edən ingilis dili öyrənənlərə ehtiyac duyur (Zeynalova, 2025).

Müasir təhsil yanaşmalarında müəllim-mərkəzli, şagird-mərkəzli öyrənmə modelləri daha geniş tətbiq olunur. Bu modellər şagirdlərin müstəqil öyrənmə, araşdırma, ünsiyyət və əməkdaşlıq kimi bacarıqlarını inkişaf etdirir. Bu metodlardan istifadə zamanı şagirdlər daha çox fəaliyyət göstərir və özgüvəni artır. Müəllim isə sadəcə izləyərək, lazım gəldikdə şagirdlərin işlərinə müdaxilə edir. Ən səmərəli və çox istifadə olunan modellərdən biri qrup işidir. Al-azzawi və Al-Khazali (2019) düşünür ki, bu üsul həmçinin tələbənin layihə üzərində işləyərkən sərf etməli olduğu vaxtı azaldır, başqa sözlə desək, tələbənin vaxtına qənaət edir və onun üçün stresssiz olur. Onların fikrincə, qrup işi tələbələrin fərqli düşünməsinə və fikirlərini rahat ifadə etməsinə kömək edir.Başqa tələbələr isə əvvəlcədən düşünülməmiş ideyalar üzərində işləyə və ya boşluqları doldura bilərlər. Bu hər zaman işə yarayır, çünki müəlliflər "iki baş bir başdan ağıllıdır" deyimi ilə razılaşırlar. Long (2014) bu metodun hər zaman effektiv olduğunu düşünmür, çünki bir tələbə verilən tapşırığı izah edərkən digərləri sadəcə passiv şəkildə dinləyir. Müəllim nə qədər yaradıcı olsa da, yaranan narazılıq darıxmağa və ya ümidsizliyə çevrilə bilər və yenidən intizam problemlərinin başlanğıcı kimi özünü göstərə bilər. Onun fikrincə, qrup işi belə problemlərin tam həlli deyil, lakin onların qarşısını almağa və ya yüngülləşdirməyə kömək edə bilər.

## Metodlar

Qrup işini uğurla həyata keçirmək üçün müəllimlər bir neçə əsas mərhələyə diqqət yetirməlidir. Tədris prosesində qruplar təşkil edilərkən şagirdlərin bilik səviyyəsinə, dil bacarığına, sosial bacarıqlarına və bir-birinə münasibətinə əsasən balanslı şəkildə olmasına diqqət yetirilməlidir.

Şagirdlər bəzən məqsədyönlü, bəzən isə təsadüfi seçim əsasında qruplaşdırıla bilər.Müəllim şagirdlərə tapşırıq hazırlayarkən ilk öncə şagirdlərin dil səviyyəsini və maraqlarını nəzərə almalıdır. Fərdi tələbələrin özünəməxsus üslubları, qabiliyyətləri və üstünlükləri vardır. Eyni zamanda, biri məlumatı konkretləşdirməyi və faktlarla, təcrübə və ya real hadisələrlə işləməyi daha çox sevir, digəri isə abstrakt işlərə üstünlük verərək nəzəriyyələr, modellər və konsepsiyalar üzərində araşdırma aparmaqdan zövq ala bilər. Digər tərəfdən, müəllimin tədris üsulu da onun öz üstünlükləri və üslublarından asılıdır (Hung & Mai, 2020).

Tapşırıqlar şagirdlərin ünsiyyət və sosial bacarıqlarını inkişaf etdirməsi üçün əməkdaşlıq tələb etməlidir. Tapşırıqlar müəllimin tərtib edəcəyi dərsin mövzusuna uyğun olaraq mətnlər, şəkillər, kartlar, iş vərəqləri və ya texnoloji avadanlıqlar əvvəlcədən hazırlanır. Şagirdlər qruplara bölünəndən sonra müəllim tapşırığın məqsədini, qaydalarını, müddətini və qiymətləndirmə meyarlarını şagirdlərə aydın şəkildə izah etməli, hər hansı bir anlaşılmazlığın qarşısını almalıdır. Şagirdlər arasında iş bölgüsü aparılarkən onların bacarıqlarına uyğun rollar verilməlidir. Qruplar tapşırıqları yerinə yetirən zaman müəllim onları diqqətlə izləməli, prosesə nəzarət etməlidir. Bunu edərkən müəllim şagirdlərin sərbəstliyinə mane olmamalıdır. Kənarda qalan şagird olarsa, müəllim qrupun işini pozmadan şagirdi müəyyən vəzifə və ya tapşırıqla təmin etməlidir. Yerinə yetirilən tapşırıqlar qruplar tərəfindən sinif qarşısında təqdim olunur, fikirlər mübadilə edilir, təqdim olunan materiallar haqqında şagirdlər arasında səmərəli müzakirə aparılaraq rəylər bildirilir. Müəllim irəli sürülən ideyaları və rəyləri qiymətləndirmə meyarlarına uyğun olaraq dəyərləndirir. Bununla da qrup işi yekunlaşmış sayılır.

Naxçıvan Dövlət Universitetində bir sıra ingilis dili müəllimləri arasında sorğu aparılmışdır. Sorğuda ümumilikdə 14 müəllim iştirak etmişdir. Onlardan tələbələrə fərdi yanaşma, cütlüklərlə iş və qrup işi vasitəsilə dərsin təşkili ilə bağlı mövqeləri öyrənilmişdir. Müəllimlərin cavabları müxtəlif olmuşdur. Sorğu nəticələrinə əsasən, ingilis dili müəllimlərindən 3 nəfəri fərdi yanaşmaya, 6 nəfəri cütlüklərlə işə, 5 nəfəri isə qrup işinə üstünlük vermişdir. Bu göstəricilər dil öyrənməsinin yalnız fərdi yanaşma ilə həyata keçirilmədiyini, əksinə, dialoqlar və müzakirələr əsasında təşkil olunduğunu ortaya qoyur. Müəllimlərin qeyd etdiyi kimi, bu cür yanaşma tələbələrin dərsdə daha aktiv və kreativ olmalarına şərait yaradır və öyrənilən materialın daha sürətli mənimsənilməsinə imkan verir.

Xarici dil öyrənmə prosesində, şagirdlərin aktiv iştirakı, qarşılıqlı ünsiyyəti və əməkdaşlığı vacibdir. Sürətlə dəyişən cəmiyyət müstəqil və tənqidi şəkildə dialoqlarda danışa bilən, fikirlərini ətraf reallıqla ahəngdar şəkildə əlaqələndirən, problemlərə yaradıcı yanaşan və onları həll edə bilən ingilis dili öyrənənlərə ehtiyac duyur (Phavadee, 2020). İngilis dili dərslərində qrup işindən istifadə, bu dərsləri daha səmərəli, maraqlı və məhsuldar hala gətirir. Qrup işi tamamilə fərqli bir anlayışdır; burada iki və ya üç tələbə əl-ələ verərək birlikdə məqsədlərə çatmaq üçün çalışırlar (Group work - Simple English Wikipedia, the free encyclopedia)

Qrup işinin müxtəlif xüsusiyyətləri vardır ki, onlar bu tədris metodunu fərqləndirir və effektiv edir. İlkin olaraq qrup işinin əsas xüsusiyyətlərindən biri əməkdaşlıq hissini inkişaf etdirməsidir. Qrup işi zamanı müəllimin verdiyi işi, tapşırığı şagirdlər yerinə yetirərkən bir-birlərinə yardım edir, fikirlərini bölüşür və bir-birindən yeni biliklər, informasiyalar əldə edirlər.Bu, şagirdlər arasında etimad, hörmət və məsuliyyət hissinin formalaşmasına səbəb olur. Həmçinin, şagirdlər arasında liderlik bacarığı olan şagirdləri ön plana çıxarmaqla, onlarda komandanı idarəetmə bacarığını daha da inkişaf etdirir. Komanda ruhu həmçinin şagirdlərin sosial bacarıqlarının inkişafına da təkan verir. Dil öyrənənlər texnoloji yeniliklərdən mütləq xəbərdar olmalıdır, çünki bu olmadan ingilis dilini öyrənmək darıxdırıcı və faydasız ola bilər. Bu səbəbdən Lin (2019) sorğudan əldə etdiyi məlumatları göstərir ki, kompüterdən istifadə etməklə qrupda öyrənən tələbələrin 60%-dən çoxu əməkdaşlığın əhəmiyyətini dərk etmiş və qrupda öyrənməyə müsbət münasibət bəsləmişdir. Onlar səbəb kimi başqaları ilə müzakirə aparmaq və birlikdə işləyərək tapşırığı tamamlamaq imkanına sahib olduqlarını göstərmişlər.

Qrup işi zamanı müəllim şagirdlərə istiqamət verir, lakin əsas rolu fasilitator kimi çıxış etməkdir. Xarici dil öyrənmədə şəxsi amillər arasında motivasiya və həvəsləndirmə mühüm rol oynayır. Motivasiya - bir işi görmək istəyinə əsaslanan və daxili bioloji, emosional, sosial və ya idrak qüvvələrini özündə birləşdirən bir hadisədir. O, məqsədyönlü davranışları başlatmaq, davam etdirmək və onlarda iştirak etmək funksiyasını daşıyır (Lin, 2019). Yəni, müəllim şagirdləri istiqamətləndirir, lakin onlara sərbəst düşünmək və qərar vermək üçün imkan yaradır. Qrup işi, rol oyunları və təqdimatlar tələbələrin həm nitq çevikliyini, həm də spontan ifadə bacarığını inkişaf etdirir. Məsələn, tələbələrin müəyyən bir sosial situasiyanı (məsələn, alış-veriş, restoran dialoqu, müsahibə) canlandırması onlara söz ehtiyatını kontekstə uyğun tətbiq etmək imkanı yaradır (Zeynalova, 2025). Belə etməklə müəllim şagirdlərin özünəinamını artırır və dil öyrənməyə marağını gücləndirir. Qrup tapşırıqları çox zaman problem həll etməyə, müzakirələr aparmağa əsaslanır. Bu isə şagirdlərin yaradıcı düşünmə və tənqidi yanaşma qabiliyyətlərini inkişaf etdirir. Müəllim qrup işini elə təşkil etməlidir ki, şagirdlərin hər biri müəyyən fəaliyyətlə məşğul olsun, kənarda qalmasın. Zəif və güclü şagirdlər tarazlı şəkildə elə yerləşdirilməlidirlər ki, zəif şagirdlər güclü şagirdlərdən öyrənmə imkanı əldə edə bilsinlər. Eyni zamanda qrup işi müəllimə şagirdlərin fəaliyyətini yaxından izləməyə imkan verir. Dərsliklərdəki danışıq fəaliyyətləri bütün tələbələrin danışmasına imkan vermir və onların əksəriyyəti danışmaq əvəzinə vizuallara baxır və ya müəllimi və dostlarını dinləyir. Başqa sözlə, bəzi tələbələr danışıq fəaliyyətlərində iştirak edə bilirlər, lakin qalan əksəriyyət passiv və səssiz qalır (Ismayilli et al., 2025). Buna görə də müəllim hər bir şagirdin yerinə yetirdiyi vəzifəni diqqətlə izləyərək ortaya çıxan nöqsanların, çatışmazlıqların qarşısını ala bilməlidir. Həmçinin müəllimlər qrup işindən istifadə edərək, hər bir şagirdin fərdi bacarıqlarını müşahidə etmək imkanı əldə etmiş olurlar. Nəzərə alsaq ki, müəllimlər dil öyrədərkən daha çox qrammatika-tərcümə metoduna üstünlük verirlər, bu metodun əsas rolu qalmaqda davam etsə də, müəllimlər indi bu metodu daha çox aktiv ünsiyyəti təşviq edən texnikalarla - məsələn, qrup işi, rol oynamavəmədəni mövzular üzrə müzakirələrilə birləşdirirlər (Nağıyeva, 2024).

Qrup işi əməkdaşlıq metoduna istinad edir; burada az sayda fərdlər ortaq məqsədə çatmaq, tapşırıqları yerinə yetirmək və ya problemləri həll etmək üçün birlikdə çalışırlar. Öyrənmə əməkdaşlıqda daha yaxşı inkişaf edir (Maria & Mehmood, 2023). Xüsusilə, onlayn təhsildə qrup işi aktiv iştirakçılığı təşviq edir, müxtəlif baxış bucaqlarını ortaya qoyur və ortaq problem həllini dəstəkləyir, bununla da dinamik və dəstəkçi bir öyrənmə mühiti yaradır. Qrup işi tələbələrə müxtəlif mənbələrdən əldə olunan bilikləri birləşdirməyə imkan verir. Onlayn alətlər bu biliklərin fəaliyyətlərə inteqrasiyasını asanlaşdırır. Kampusdaxili ünsiyyət məhdud olduqda, onlayn əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Belə əməkdaşlıq tələbələrin aidiyyət hissini gücləndirir. Bundan əlavə, ünsiyyət bacarıqları və onlayn komanda işi gələcəkdə işəgirmə qabiliyyəti üçün əsas şərtlərdən sayılır (OnlineGroupwork)

## Nəticələr

Qrup işi xarici dil öyrənməsində ən səmərəli metodlardan biri kimi qəbul olunur. Bu yanaşma şagirdlərin ünsiyyət, əməkdaşlıq, liderlik və sosial bacarıqlarını inkişaf etdirir, onların motivasiyasını artırır və öyrənməni daha maraqlı və məhsuldar edir. Müəllimlər bu prosesdə sadəcə fasilitator rolunda çıxış edir, şagirdlər isə aktiv iştirakçı olur.qrup işi yalnız Azərbaycan təhsilində deyil, müxtəlif ölkələrin təhsil sistemlərində də uğurla tətbiq olunur. Müxtəlif pedaqoji yanaşmalar və texnologiyaların istifadəsi bu metodun effektivliyini artırır.Müəllimlər qrup işini tələbələrin daha kreativ və aktiv olmasına şərait yaradan bir üsul kimi qiymətləndirirlər. Ümumilikdə, qrup işi dil öyrənmədə sadəcə qrammatika və lüğət biliklərini deyil, həm də real ünsiyyət bacarıqlarını formalaşdırır. Bu metod şagirdlərin özünəinamını gücləndirir, yaradıcı düşünməsini inkişaf etdirir və onları gələcək peşə və sosial həyatda daha hazırlıqlı edir.

**Müzakirələr**

Qrup işi tədris prosesində effektiv və öyrədici metod sayıldığından bir çox ölkənin təhsil sisteminin ayrılmaz tərkib hissələrindən biridir. Xüsusilə, ingilis dili kimi xarici dillərin öyrədilməsində bu üsul öyrənənlərin həm dil biliklərini, həm də sosial bacarıqlarını gücləndirir. Lakin qrup işinin tətbiqi ölkədən-ölkəyə fərqli yanaşmalar tələb edir. Bu fərqlər təhsil sisteminin strukturu, pedaqoji yanaşmalar, müəllim hazırlığı, texnologiyanın istifadəsi və sosial-mədəni faktorlarla sıx bağlıdır. Bu fərqlərə nəzər salsaq görərik ki, Azərbaycan və digər xarici ölkələrdə tətbiq olunan qrup işi arasında bir sıra fərqlər var. Məsələn, Azərbaycanda qruplar çox zaman müəllim tərəfindən əvvəlcədən müəyyən edilir. Bəzən bu bölgü məhz sinif siyahısına və ya oturma planına uyğun qurulur. Şagirdlərin dil səviyyəsi, maraq və tələbatları nəzərə alınmaya bilər. Bu səbəbdən də bəzi qruplarda aktiv-passiv balansı pozulur. Xarici ölkələrdə isə qruplar xüsusilə məqsədli şəkildə təşkil olunur. Qrupların tərkibi qarışıq formada və müxtəlif bacarıqları əhatə edəcək şəkildə təşkil olunur. Vyetnamda ingilis dili mühiti sadəcə sinif otağında, imtahana hazırlaşmaq üçün yazılan kitablarla məhdudlaşır. Gənclər üçün dili öyrənmək bəzən bir travma olaraq qalır, çünki düşünürlər ki, onlar heç vaxt ingilis dili öyrənə bilməyəcəklər. Qrup işindən tədris zamanı istifadə bu vəziyyətin yaxşıya doğru getdiyini göstərmişdir. Hung və Mai (2020) inanır ki, müxtəlif formatlarda qrup işi müəllimlər üçün bu travmanı aradan qaldırmaq üçün mümkün bir vasitə olmalıdır. Bu, tələbələr ingilis dili dərslərinə daxil olduqda mühitin təhlükəsiz, mənalı, öyrənilə bilən, əlverişli və zövqlü olmasına şərait yaradır və onu hədəf dil bacarıqlarını inkişaf etdirmək üçün həqiqətən xoş bir təcrübəyə çevirir. Türkiyədə ingilis dilinin tədrisində qrup fəaliyyətindən istifadə müsbət nəticələr vermişdir. Koç tərəfindən aparılmış təcrübəyə əsasən müəllim və şagirdlər qrup işini faydalı hesab etmişdir. Nəticələr göstərdi ki, ingilis dili müəllimləri kimi, tələbələr də hesab edirlər ki, qrup işi öyrənənləri motivasiya edir və onlara hədəf dildə məşq etməyə imkan yaradır. Demək olar ki, bütün tələbələr (91%) qrup işi fəaliyyətlərinin çox motivasiyaedici olduğunu bildirmişlər (Koç, 2018). Avropa ölkələrində, xüsusilə Finlandiya, Almaniya və Böyük Britaniyada qrup işinə böyük əhəmiyyət verilir. Bu ölkələrdə ingilis dilini inkişaf etdirmək üçün qrup işindən real həyati situasiyalardan istifadə etməklə, qazanılan biliyi vərdişə çevirmək hədəf təşkil edir.İngilis dilindən şagirdlərin sərbəst şəkildə istifadə etmələri üçün bir sıra vasitələrə əl atılır. Müəllimlər daha çox problemyönümlü tapşırıqlara üstünlük verirlər. Şagirdlər mövzu ilə bağlı müzakirə aparır, birgə nəticə hazırlayır və təqdim edirlər.

**Ədəbiyyat**

1. Al-Azzawi, Q. O., & Al-Khazali, A. B. (2019). Group work effectiveness in English language teaching. *University of Kufa Journal, 11*(41), 529–544.
2. Group work. (n.d.). In *Simple English Wikipedia*. Retrieved from https://simple.wikipedia.org/wiki/Group_work
3. Hung, D. M., & Mai, L. T. T. (2020). High school teachers' perceptions and implementations of group work in English speaking classes. *International Journal of Instruction, 13*(2), 445–462. https://doi.org/10.29333/iji.2020.13231a
4. Ibrahimli, N. (2024). Using authentic dialogues in teaching English. *Вісник післядипломної освіти: Серія «Педагогічні науки», 29*(58), 81–93.
5. Ismayilli, T. M., Mammadova, K. M., & Asadova, A. A. (2025). The impact of educational games on speaking skills in the foreign language teaching process. *Novitas-ROYAL (Research on Youth and Language), 19*(1), 229–240.
6. Ismayilli, T., Mammadova, R., Mehdizade, N., Orujlu, A., & Heydarova, N. (2025). Barriers to foreign language skill development and strategies for effective improvement. *Elmi İş (International Scientific Journal), 20*(3), 87–100. https://doi.org/10.36719/2663-4619/127/87-100
7. Koç, E. (2018). Exploring collaborative learning with a focus on group activities in EFL classrooms. *İnönü Üniversitesi Eğitim Fakültesi Dergisi, 19*(3), 582–597. https://doi.org/10.17679/inuefd.406917

8. Lin, S. F. (2019). Students' attitudes towards learning English vocabulary through collaborative group work versus individual work. *Journal of Education and Learning, 8*(4), 93–111. https://doi.org/10.5539/jel.v8n4p93
9. Long, M. H. (1977). Group work in the teaching and learning of English as a foreign language: Problems and potential. *ELT Journal, 31*(4), 285–292. https://doi.org/10.1093/elt/31.4.285
10. Naghiyeva, G. (2024). Choosing the right methods during the formation of speaking skills. *Euro Global Journal of Linguistics and Language Education, 1*(2), 58–64.
11. Orujlu, A. (2025). Evolution of language teaching methodologies: From grammar-translation to communicative approaches. *Global Spectrum of Research and Humanities, 2*(5), 144–155.
12. Phavadee, S. (2020). The way of teaching toward different students' learning styles: Teaching that takes into account different learning styles. *Opus et Educatio, 7*(2). https://doi.org/10.3311/ope.388
13. Zeynalova, R. (2025). Danışıq bacarıqlarının formalaşması və inkişafında əsas amillər. *Global Spectrum of Research and Humanities, 2*(5), 261–267.